# Xüsusi qayğıya ehtiyacı olan uşaqlar və inklüziv mühit

**Aytən Davudova**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** aytandavudova@gmail.com

**Rəyçilər:** prof. S.Ş. Nuriyev,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** sağlamlıq imkanları məhdud şəxslər, xüsusi qayğıya ehtiyacı olan şəxslər, inklüziv mühit, inklüziv təhsil, inteqrasiya

**Ключевые слова:** лицо с ограниченными возможностями здоровья, нуждающиеся в особой заботе, инклюзивного среды,инклюзивного образования, интеграции

**Key words:** Persons with disabilities, persons with special needs, inclusive environment, inclusive education, integration

"Xüsusi qayğıya ehtiyacı olan uşaqlar" anlayışı artıq illərdirki, həm yerli həm xarici mütəxəssislər tərəfindən şərh olunur. Lakin son dövrlərdə "xüsusi qayğıya ehtiyac" dedikdə daha çox qüsurlu, inkişafdan qalmış, xəstə uşaqlar başa düşülür. Lakin mahiyyətinə diqqət yetirsək bu terminlər bir-birindən əsaslı dərəcədə fərqlidir.

Bütün uşaqların xüsusi ehtiyacları var. Hər bir uşaq, hazırlığı və bacarığından asılı olmayaraq özünəməxsus ehtiyaclara malikdir və böyüklərin xüsusi diqqətinə layiqdir (2, 14).

Xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusi təşkil edilmiş şəraitə ehtiyacları var. Belə şərait onların xəstəliyinin fəsadlarını minimuma endirmək, onlar üçün geniş təcrübə və vərdiş qazanmaq üçün təşkil edilir. Onların azyaşlı uşaqların ümumi tələbatlarına cavab verə və qüsurlu uşaqların təhsil-təlimi üçün vacib vərdişləri öyrədə və istifadə etdirə bilən peşəkarlara ehtiyacı var. Həmçinin, ailənin təlabatlarına cavab verən və onların inkişafı üçün ailələrlə əməkdaşlığı qiymətləndirən mütəxəssislərə böyük ehtiyac var (1, 95).

Xüsusi qayğıya ehtiyacı olan uşaqların qəbul olunmuş beynəlxalq (Avropa) təsnifatına diqqət yetirməklə biz "xüsusi qayğıya ehtiyacı olan uşaqlar" və "qüsurlu uşaq" anlayışlarının müxtəlifliyinin şahidi ola bilərik.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təsnif olunması ilə bağlı müxtəlif ölkələrdə, ayrı-ayrı beynəlxalq təşkilatlarda fərqli yanaşmaların şahidi olmaq mümkündür. Bu yanaşmaları eyniləşdirmək üçün xüsusi qayğıya ehtiyacı olan uşaqların üç kateqoriya üzrə təsnif edilməsi OECD tərəfindən ingilis dilində "3D" modeli kimi tanınır:

1. Səhhətində problem olanlar - əlillər (sensor, motor və ya nevroloji qüsurlar) - (ingilis dilində "Disability")
2. Çətinliyi olanlar (Davranış və ya emosionallığında tarazlıq olmayanlar və ya təhsildə xüsusi çətinliyi olanlar) - (ingilis dilində "Disorder")
3. Həssas uşaqlar, sosial cəhətdən az müdafiə olunanlar (həssas, köməksiz, sosial-iqtisadi, mədəni, din və ya dil faktorlarına görə yaranmış problemlərlə bağlı ) - (ingilis dilində "Disadvantage") (2, 19).

Qeyd edilən təsnifata uyğun olaraq bütün uşaqların müəyyən ehtiyaclarının ödənilməsi üçün ilk öncə müvafiq inkişafetdirici mühitin olmasına ehtiyac vardır.

ABŞ və Avropanın müasir siyasətində sağlamlıq imkanları məhdud və sağlam uşaqların

təhsilinə bir neçə yanaşmalar mövcud olmuşdur. Bu yanaşmalar içərisində meynstrininq, inteqrasiya və inklüziv təhsil daha çox diqqəti cəlb edir.

Meynstriminq — sağlamlıq imkanları məhdud uşaqların kütləvi məktəblərə birgə təhsil almaq məqsədi ilə yox, yalnız həmyaşıdları ilə bayramlarda, müxtəlif proqramlarda ünsiyyətdə olmaq, yəni sosial dairəni genişləndirmək deməkdir.

İnteqrasiya — təhsil sistemi dəyişməz qalaraq, fiziki və psixi çatışmazlığı olan uşaqlar sağlam şagirdlərlə birlikdə kütləvi məktəblərdə təhsil alırlar. Bu zaman əlil uşaqların digər uşaqlarla bir sinifdə oxuması bir o qədər vacib hesab edilmir.

Dünyada xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin tarixini üç mərhələyə bölmək olar:

1. Birinci mərhələ XX əsrin əvvəllərindən 1960-cı ilədək olan dövrü əhatə edir. Seqreqasiya - məcburi ayırma, təcridetmə siyasəti, hüquqların məhdudlaşdırılması adlanır.
2. İkinci mərhələ ötən əsrin 60-80-ci illərini əhatə edir və bu mərhələdə "normallaşdırma modeli" tətbiq edilir. Bu proses inteqrasiya adlanır.
3. Üçüncü mərhələ 80-ci illərdən indiyədək olan dövrü əhatə edir. Bu mərhələdə "sosial model" tətbiq olunur və bu proses inklüzivlik adlanır (4, 87).

Daxilolma və ya inklüziv təhsil-daha uyğun termindir. Onun mahiyyəti belə açıqlanır: Bu islahat keçirilmiş elə məktəbdir ki, onun tədris fənləri və otaqları yenidən elə planlaşdırılıb ki, onlar məhdudiyyət qoyulmadan bütün uşaqların (sağlamlıq imkanları məhdud və sağlam) tələblərinə cavab verir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud və sağlam uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsi üçün əlverişli şərait yaradır (3, 10).

İnklüziv təhsilin tam əlverişli olması üçün inklüziv mühitin yaradılması lazımdır. İnklüziv mühitin yaradılmasının əsas məsuliyyəti ilkin olaraq cəmiyyət üzərinə daha sonra isə dövlət, qanunverici sistem üzərinə düşən bir vəzifədir. Hazırki dövrdə inklüziv mühit tam olaraq qurulmasa belə inklüziv təhsilin qurulması üzrə dövlət öz üzərinə düşən vəzifəni müəyyən dərəcədə yerinə yetirir.

Xüsusi ehtiyacları olan uşaqların ümumtəhsil məktəb mühitinə daxil edilməsi, bir qayda olaraq, təhsil alan bütün uşaqların təhsilinin səviyəsinin yüksəldilməsinə kömək edən katalizatora çevrilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv təliminin təşkili təhsil müəssisələrində mövcud problemlərin aradan qaldırılmasına, onların inkişaf etdirilməsinə, həmin müəssisələrdə təhsil alan uşaqların sosial müdafiəsinin gücləndirilməsinə və cəmiyyətdə sosial bərabərliyin bərqərar olmasına müsbət təsir göstərir.

İnklüziv təhsilin cəmiyyət qarşısında göstərdiyi xidmətlərdən biri də odur ki, təhsil müəssisələrində cərəyan edən inklüziya prosesi ictimai səviyyədə inklüziv cəmiyyətin yaradılmasına müsbət təsir göstərən effektiv bir alət kimi çıxış edə bilir.

İnklüziv mühit bütün insanlara psixofiziki imkanlarından, cinsindən, yaşından, etnik və dini mənsubiyyətindən asılı olmayaraq tam və bərabər hüquqlu olmağa və ictimai həyatda iştirak etməyə imkan yaradır. Belə cəmiyyətdə insanın bütün fiziki və əqli xüsusiyyətləri hörmətlə qarşılanır və qiymətləndirilir, hüquqların məhdudlaşdırılması-diskriminasiya halları ilə isə həm rəsmi səviyyədə, həm də cəmiyyətin gündəlik həyatında mübarizə aparılır.

**Mövzunun aktuallığı.** Müasir dövrdə xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası məsələsi uşaq şəxsiyyətinin inkişafına təsir edən amillərə xüsusi diqqət ayırmağa başlanılmışdır.

**Məqalənin elmi yeniliyi.** İnkluziv mühit xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilalanların bərabərhüquqluluğunu, kollektivin bütün işlərində iştirakını stimullaşdırmağı təmin edə biləcək, resurslara malik olub, onlarda ünsiyyət üçün lazım olan qabiliyyətlərin

inkişafına təsir edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən xüsusi qayğıya ehtiyacı olan uşaqların inklüziv mühitinin təşkilində, deffektoloq, psixoloq, müəllim və valideynlər üçün elmi-metodik tövsiyələrin hazırlanmasında, elmi-tədqiqat müəsissələrində mütəxəssislərin tədqiqat işlərində istifadə oluna bilər.

## Ədəbiyyat

1. Bailey D.B., Wolery, M. Teaching infants and preschoolers with disabilities. Columbus, 1992, 255 s.
2. Xüsusi qayğıya möhtac uşaqların erkən yaş dövrü proqramlarına daxil edilməsi // AUTMA-nın praktik tədqiqatları seriyaları, 6-cı cild.
3. İmanova L. Azərbaycanda inklüziv təhsilin vəziyyəti: problemləri və perspektivləri. ETİ. Bakı, 2016.
4. İnklüziv təhsil üzrə metodik vəsait. Bakı: Müasir Təhsilə və tədrisə Yardım Mərkəzi. 2010.

**А. Давудова**

## Детей, нуждающихся в особой заботе и инклюзивного среды

## Резюме

В статье рассмотрен вопрос о воспитании детей, нуждающихся в особой заботе. Было установлено, что образование этих детей прошло историю в трёх этапах. Именно последняя стадия «Социальная модель» лежит в основе инклюзивного образования. Инклюзивное образование предусматривает право каждого ребенка, нуждающихся в особой заботе с участвовать в процессе обучения со своими сверстниками.

**A. Davudova**

## Children with special needs and inclusive environment

## Summary

This article examined the question of the education of children with special needs. Education of children with special need has developed a 3 stage history. The last stage of social model based on the inclusive education. Inclusive education for every child with special needs the right to participate in the educational process is planned in collaboration with peers.

**Redaksiyaya daxil olub:** 18.01.2017